**CƏMALƏ HÜSEYNOVA**
**BDU**
**Zahid Xəlil 23**
**cemilekerimli@gmail.com**

# NİTQ AKTLARININ TƏSNIFINƏ DAIR

**Xülasə**

Məqalədə nitq aktları nəzəriyyəsinin əsas anlayışları barədə məlumat verilir, lokusiya, illokusiya, lokutiv akt, illokutiv akt, perlokutiv akt məsələlərinə aydınlıq gətirilməsinə cəhd göstərmir. Tədqiqatçıların nitq aktlarının öyrənilməsinə yanaşma üsulları nəzərdən keçirilir. Yazıda nitq aktlarının, illokutiv güc və məqsəd əsasında təsnifi məsələsinə baxılır. Nitq aktlarının reprezentativ, deklarativ, direktiv komissiv, ekspressiv, vokativ, performativ kimi növləri şərh olunur.

Müasir linqvistik istiqamətlərdən biri olan nitq aktları nəzəriyyəsində adreantın ünsiyyət prosesində iştirak edən adresata ünvanlanmış replikaları müxtəlif tip və növlərə bölünür. Bir nitq aktlarının hər birinin ünsiyyət prosesinə özünəməxsus təsirləri olur. Həmin təsir nitq aktının semantikasından, fikrin formalaşdırılması üçün seçilmiş dil vasitələrindən aslılığa malikdir. Ünsiyyətdə istifadə olunan nitq aktının hansı növə aid olmasını müəyyənləşdirmək üçün müəyyən kriteriyaların seçilməsi tələb olunur.

Nitq aktlarının təsnifi onların növlərinin daxili təsnifinə əsas yaradır. Bu halda təhrik nitq aktını xahiş, arzu, istək, yalvarış kimi alt növlərə bölmək olur. Tədqiqat nəticəsində aydın olur ki, alt növlərin hər biri nitq aktının semantik təhlili prosesində aydınlaşır. Xahiş və təhrik növlərinin bir-birindən seçilməsi bəzi hallarda nitq situasiyası iştirakçılarının əvvəlki nitq aktlarını da nəzərə almağı tələb edir. Dilin etiketlə bağlı bəzi qəlibləri xahiş nitq aktını fərqləndirən vasitə ola bilir. Bu linqvistik hadisə yalnız etiket qəlibləri ilə bağlı nitq aktlarına aid olur. Etiketin nitq aktına uyğun gələn bəzi formalarında hazır qəliblər vardır ki, onlar nitq aktında istifadə edilir.

**Açar sözlər:** nitq, nitq aktı, lokusiya, illokusiya, lokutiv akt, illokutiv akt, nitq aktı

Hər bir ünsiyyət prosesi mütləq iki tərəfi əhatə edir. Birinci tərəf danışan (adresant), ikinci tərəf dinləyən (adresat) olur. Nitq aktları nəzəriyyəsinin obyekti bilavasitə dinləyənlə ünsiyyət zamanı danışanın söylədiyidir. Nitq aktı danışanın dinləyənlə birbaşa ünsiyyət prosessində dediyi cümlədir. Nitq aktının bu şəkildə təyin olunması nitq aktları nəzəriyyəsinin tədqiqat dairəsini maksimal şəkildə daraldır. Dialoq, təhlilində tədqiqat obyekti daha keçmişdir və burada ünsiyyət iştirakçılarının (adresant və adresat) nitq aktları mübadiləsini əhatə edir. Yəni dialoqda adresant və adresat ən azı bir dəfə yerini, funksiyasını dəyişmir.Nəticədə bir-biri ilə əlaqəsinin mövcudluğu ehtimalı çox yüksək olan ən azı iki nitq aktı təhlilə cəlb olunur.Nitq aktları nəzəriyyəsinin tədqiqat oblastının sıxılması,bir tərəfdən,onun imkanlarını daxili strukturu üzərində cəmləşdirməyə zəmin yaradır.

Nitq aktını təhlil edərkən onun statik və dinamik tərəflərinə əsaslanmaq lazım gəlir. Nitq aktını elementar vahid cümləyə qədər tamamlamaq ona iki istiqamətdən yanaşmağa imkan verir. Birinci yanaşma informativlik olub nisbi bitmiş fikrin örtülməs ilə reallaşır. Bu baxımdan nitq aktında feil önəmli mövqeyə keçir.Çünki feil predikativliyin formalaşdırılmasının əsas vasitəsidir. İkinci yanaşma cümlənin aktual üzvlənməsi ilə bağlıdır.Hər bir nitq aktı tema və remaja malik olur.Danışan öz söyləminin eksplikasiyası üçün müəyyən feili seçir.Onun bu və ya digər feili seçməsi dinləyənin söyləmi başa düşmək üçün yerinə yetirdiyi əməliyyatı bərpa

edir.Danışanın nitq aktının hərfi mənası ,onun aktual mənası ilə üst-üstə düşməyə bilər.Bu cəht dinamik tərəfin tədqiqinə yol açır.Nitq aktları nəzəriyyəsində nitq fəaliyyəti subyekti mücərrəd fərddir və o, bir sıra xüsusiyyətlərin daşıyıcısıdır.Bu xüsusiyyətlər psixoloji (dinləyənə münasibətdə status ,müəyyən sosial institut çərçivəsindəki funksiya) olmaqla iki qrupa ayrılır.Deyilənləri əsas götürdükdə nitq aktları nəzəriyyəsi ilkin marağa görə məntiqi əsas götürdükdə nitq aktları nəzəriyyəsi ilkin marağa görə məntiqi-fəlsəfi ünsiyyətin elementar vahidi haqqında təlimlərin nəticələrinə görə linqvistlik olub cümlənin aktuallaşması kimi başa düşülür.Bu zaman ünsiyyət şəxslərarası münasibətin təzavürü olur.

Nitq aktları nəzəriyyəsinin təşkiledicilərinə münasibətdə müxtəlif fikirlər vardır. (Bax:Yakobsun). Məsələn, P. Yakobson kommunikativ akt modelinə məqsədi daxil etməmişdir (Bax: Yakobson 1975, c.64).

Nitq aktı və onda istifadə olunan dil vasitələrinə münasibətdə lokutiv akt kimi çıxış edir. Elan edilən məqsəd və onun həyata keçirilməsi şərtlərinə görə isə nitq aktı illokutiv akt kimi aşkara çıxır. Nitq aktının nəticəsinə münasibətdə bu, perlokutiv aktdır (Bax: Ostin, c.92).

Verilmiş üççat oppozisiya söyləmin məzmun planındakı peteronelik təsəvvürlərinə uyğunluğa malikdir. Lokutiv akt təcrübəsində dil vasitələrindən istifadə etməklə danışan söyləmə lokutiv məna daxil edir. İllokutiv akt prossesində deyimin məqsədinin müəyyən şəraitdə elan olunması ilə danışan söyləmə müəyyən illokutiv güc verir. Perlokutiv akt isə öz mahiyyətinə görə söyləmin məzmunu ilə bağlılığa malik olmur (Osmin, c. 93). Beləliklə, nitq aktının təhlili üçün bir-biri ilə qarışıqlılığı bağlı olan iki cüt kateqoriya mövcud olur: 1. Lokutiv akt-lokutiv məna; 2. İllokutiv akt-illokutiv güc. Bu kateqoriyalar lokusiya və illokusiya anlayışları ilə ümumiləşdirilir.

Nitq təsirinin üçsəviyyəli modelində əsas yenilik illokusiya anlayışıdır. Lokusiya bütün semantik nəzəriyyələrdə tədqiqat obyekti olmuşdur. Belə semantik nəzəriyyələrdə təcrid olunmuş cümlə ilə onun məzmunu, başqa sözlə desək, ünsiyyətdə cümlənin işlədilməsi ilə ötürülən, bir sıra aspektlərdən mücərrədləşdirilmiş psevdo fikir, yaxud nəzəri konstrukt arasındakı uyğunluğun modelləşdirilməsi aparılmışdır. Perlokusiya nitqin auditoriyasının fikir və hisslərinə təsirini və bu təsir vasitəsilə adamların iş və əməllərinə müdaxiləni əhatə edir. Yalnız illokusiya nitq aktının və söyləm məzmununun elə aspektlərini nəzərdə tutur ki, onlar nə formal semantikada, nə ritorikada aşkara çıxmır.

Ostin illokutiv aktın dəqiq təyinini vermişdir. O göstərir ki, adətən lokutiv aktın həyata keçirilməsi ilə eyni zamanda illokutiv akt da reallaşır. Məhz hansı illokutiv aktın baş verməsini təyin etmək üçün verilmiş lokusiyanın necə istifadə olunmasını müəyyənləşdirmək lazımdır. Bura aşağıdakılar daxildir:

- Soruşmaq və ya suala cavab;
- Məlumatlandırma, inandırma və ya xəbərdarlıq etmə;
- Qərarı və ya niyyəti elan etmə;
- Hökmü elan etmə;
- Təyin etmə, çağırma və ya tənqid etmə;
- Eyniləşdirmə və ya təsvir etmə və s. (Ostin, c. 96).

Ostin bu fikirlərindən sonra illokusiyanın fərqləndirici əlamətlərini aşkara çıxarmağa çalışmışdır. P.F. Strosona görə illokutiv aktı lokutiv aktdan fərqləndirən əsas əlamət məqsədyönlülükdür. İllokutiv aktı perlokutiv akta qarşı qoyan əsas əlamət isə konvensionallıqdır (Bax: Stroson, c.131-132).

Nitq aktında intensionallıqla konvensionallıq antonimiya təşkil edir.Danışanın niyyəti (intensiyası) bu niyyətin gizlədilməsi (konvensiya) ilə ziddiyət təşkil edir.İllokutiv səviyyədə dil konvensiyası nitq aktının qurulması və dərk olunmasını izah etmək üçün kifayət etmir.İ.M.Kobzayeva bu məsələnin aydınlaşdırılması məqsədilə belə bir nümunədən istifadə etmişdir: “Mən valideynlərinizlə danışıram”.Müəllif göstərir ki,danışan bu cümləni deməklə fərqli niyyətlər güdə bilər.O,adresata sadəcə məlumat verir,üzərinə öhdəlik götürür,adresatın hansısa hərəkətinin qarşısını almaq istəyir və s.Dil konvensiyasına münasibətdə bütün bu hallarda eyni fəaliyyət baş versə də, müxtəlif illokutiv aktlar icra olunur.Bura məlumat vermək, vəd

vermək,xəbərdarlıq etmək və ya qorxutmaq .Dinləyən danışanın hansı illokutiv aktı yerinə yetirdiyini başa düşür(bax:Kobzayeva,c.15-16)

S.Cerl illokutiv aktını daha geniş təqdimatını "nitq aktları nədir?" məqaləsində vermişdir.Onun fikrinə görə ,müəyyən şəraitdə konkret cümlənin qurulub söylənməsi illokutiv aktdır və bu,ünsiyyətin minimal vahididir.İllokutiv aktın reallaşması davranışın elə formasına aiddir ki,bu forma qaydalarla tənzimlənir.Müəllif belə hesab edir ki,soruşmaq,təsdiq etmək və s. fəaliyyətlər qaydalarla tənzimlənir.O belə qaydaları yaratmağa çalışmışsdır.(Cerl.)

İllokutiv məqsəd illokutiv gücün əsas hissəsi olsa da,onu tamamlamır.Məsələn,xahiş və əmrin illokutiv məqsədi üst-üstə düşür,onları nəyəsə təhrik etməyi nəzərdə tutur.Xahiş əmrdən fərqləndiyi üçün onların illokutiv gücü də eyni deyildir.Nitq aktlarının əsas iki istiqaməti vardır.Birinci istiqamət gerçəklikdən sözə yönəlir.Məsələn,nəyisə təsdiq və ya inkar real gerçəklikdəki vəziyyəti sözlə ifadə etmək,verballaşdırmaqdır.İkinci istiqamət sözdən gerçəkliyə yönəlir.Əmr və xahiş zamanı belə istiqamətlənmə baş verir.Söz-əmr verilir və o reallaşdırılır.Bundan başqa nitq aktlarının söz-reallıq münasibətlərində sıfır halı da vardır.Üzrxahlıq, minnətdarlıq bu hala uyğun gəlir.

Nitq aktında danlşanın psixoloji vəziyyəti ifadəsini tapır.Başqa sözlə desək,nitq aktının məzmununa (arzu,inam,təəssüf və s)aid münasibət və vəziyyət danəşana aid xüsusiyyətdir.Bu və ya digər psixoloji vəziyyətin ifadəsi nitq aktının səmimilik şərti olub müxtəlif illokutiv aktları əhatə edir.Məsələn,inam təsdiqi,elan etməni,konstatasiyanı,izahı və s. ifadə edir.Niyyət isə vəd,and,hədə-qorxu,arzu-xahiş,əmr,komanda və s. ilə bağlıdır.Ş.Cerl qeyd edilən əlamətlərə əsaslanaraq nitq aktlarının beş bazis növünü ayırmışdır:1)penpezentativlər; 2)direktivlər; 3)kommisuvlər; 4)deklarativlər; 5)ekspressivlər (Cerl 1986,c.170-195)

Penpezentativlər informativ aktlar olub danışanın hadisələrin real və mental vəziyyəti haqqında məlumatına ,onun doğruluğuna görə məsuliyyətini qeydə alır.Bu sinfə də bütün elementlər doğru və yalan şkalası üzrə qiymətləndirilir.Penpezentativlərdə istiqamət "söz→reallıq" formasındadır.Əqidə ,inam psixoloji vəziyyətini ifadə edir.Penpezentativlər tamamilə ayrıca sinif təşkil edir. İllokutiv məqsədə əsaslanır. Reprezentativlərin illokutiv predikatları təsdiq etmək, hesab etmək, məlumat vermək, xəbər vermək, cavab vermək kimi feillərdir. Informativ məlumatlar, təsdiq və vurğulama, təsvir, proqnoz, mühakimə, suallara cavab, təsnif etmə, tanıtma, xarakteristika, hesabat, inandırma, izah bu sinfə daxildir. Xəbər şəkli formasında predikatı olan bütün nəqli cümlələr reprezentativlərə aiddir."Özəl televiziya kanalından zəng vurulmuşdur. Məni biologiya haqqında verilişə dəvət etdilər." "Tahir yaxşı adamdır" cümləsində bir fərdə aid xüsusiyyət barədə məlumat verildiyinə görə bu cümlə də reprezentativdir. Sonuncu cümlənin illokutiv gücü xarakteristika üzərində cəmlənmişdir.

Direktivlər dinləyəni müəyyən hərəkəti yerinə yetirməyə təhrik edən nitq aktlarıdır. Burada istiqamətləndirmə reallıq→söz formasında qurulur. Direktivlərin doğruluq şərti arzu, istək, tələb hesab olunur. Direktivləri ifadə edən feillər sırasına aşağıdakılar daxildir: göstərmək, sərəncam vermək, təhrik etmək, məlumatlandırmaq, soruşmaq, çağırmaq, əmr etmək, istəmək, xahiş etmək, yalvarmaq, dəvət etmək, icazə vermək, məsləhət görmək, inandırmaq, döyüşə çağırmaq, təklif etmək və s. Normativ aktlar da direktivlərə aiddir. Direktivlər təhrik dərəcəsinə görə fərqlənir. Məsələn, "xahiş etmək" və "məcbur etmək" feilləri ilə düzələn direktivlərdə təhrik gücü zəifdir, "məcbur etmək" feilinin predikat funksiyasında çıxış etdiyi direktivdə təhrik dərəcəsi yüksəkdir. Komissivlərdə məqsəd danışanın boynuna gələcəkdə hansısa işi görmək, hərəkəti etmək qoyulur. Komissivlər direktivlərdə istiqamətlənmə, reallıq→söz formasındadır. Komissivlərdə müəyyən fəaliyyətin yerinə yetirilməsi danışan üzərində cəmləşirsə, direktivlərdə dinləyən fəaliyyətə təhrik edilir. Ekspressivlərdə illokutiv məqsəd doğruluq şəraitində hadisələrin nisbi vəziyyətini nəzərə almaqla psixoloji halı ifadə etməkdir. Danışanda müəyyən psixoloji vəziyyətin yaranmasına real vəziyyətlə əlaqədar yaranır. Ekspressivlərdə istiqamətlənmə yoxdur, onlar sıfır istiqamətlidir. Bu tipli nitq aktlarında propozisiya subyekti dəyişə bilir. Məsələn, "Gəlmədiyimə görə üzr istəyirəm" nitq aktında danışan öz hərəkətinə görə üzr istəyir. O, propozisiyanın subyektidir. Yəni gəlməmək hərəkəti danışana aiddir. "Gəldiyinə görə təşəkkür edirəm" nitq aktında propozisiya subyekti dinləyəndir. Ekspressivlər üçün performativ etiket feilleri səciyyəvidir. Məsələn, bağışlayın, üzr

istəyirəm, minnətdaram, təbrik edirəm, təəssüf edirəm və s. Ekspressivlər qeyri-informativ nitq aktlarıdır. Tərəflər arasında müəyyən münasibətlərin mövcudluğu yaxud keçmişdə baş verməsi ünsiyyətin yaranmasına xidmət edir. Diklarasiya, yaxud elan etmək nitq aktları müəyyən vəziyyəti elan etməyin ifadəsini nəzərdə tutur, nitq aktının propozisional məzmununa uyğun gəlir. Uyğunlaşma hər iki xətt üzrə - reallıq→söz, söz→reallıq istiqamətlənə bilər. Deklorativlərdə psixoloji vəziyyət ifadəsini tapmır. Diklorativ aktların nəticəsi reallıqda mövcud olanı qurmaqdır. Partiyaya qəbul, müharibə elan etmək, iclası açmaq, gündəliyi müəyyənləşdirmək və s. Deklorativ nitq aktlarına aiddir. Bu nitq aktlarının illokutiv feillərinə elan etmək, təsdiq etmək, vəsiyyət etmək, həsr etmək, təyin etmək, azad etmək, sənədi təsdiq etmək və s. nümunə göstərilə bilər. Deklorativ aktların uğurluğu danışanda müvafiq səlahiyyətlərin olmasından irəli gəlir. (Cerl).

Ş. Cerlin verdiyi bu təsnifat nitq aktlarının mümükün növlərinin hamısını əhatə etməyə az imkan yaradır. Eyni zamanda bu təsnifat sxeminin müxtəlif qruplarına eyni nitq aktının aid edilməsi mümkündür. Məsələn, dəvət eyni zamanda həm komisiv, həm də direktivdir. Çünki bu nitq aktı danışanı dəvət ediləni lazimi şəkildə qəbul etmək öhdəliyi qarşısında qoyur. Şikayət eyni zamanda həm penpezentativ, həm direktiv, həm də ekspressiv olur. Penpezentativlik hadisə barədə informasiya verilməsindən irəli gəlirsə, şikayət müəyyən əmələ görə cəzalandırmaya görə təhlil baxımından direktivdir. Ekspressivlik danışanın hadisədən, vəziyyətdən, narazılığından irəli gəlir. Ş. Cerlin təklif etdiyi təsnifat nitq aktlarının dəqiq qruplaşdırılmasına zəmin yaratmasa da, bu sahədə müəyyən ümumiləşdirmə imkanı verir. Nitq aktları növləri arasında performativ söyləmlər, performativlərdə xüsusi yer. Bu anlayışı Ş. Ostin daxil etmişdir. "Performo" latın sözüdür "Fəaliyyət göstərirəm", "ifşa edirəm" mənasını verir. Performativlər sözlə işin üst-üstə düşməsi halını nəzərdə tutur. Performativ söyləmlər müəyyən feillərin I şəxsi təkində indiki zamanda xəbər şəklində danışanın gördüyü işi, yerinə yetirdiyi hərəkəti ifadə edən feilin adı bu iş və hərəkətlə eyniliyi kimi təyin olunur. Söz ifadə edilən hərəkətin eyni olduğuna görə performativ feillər aftoreferentli olub, görülən işə işarə edir. Performativ feildə görülən iş, hərəkət feilin səslənməsi anı ilə başlanır. Ancaq feilin tələffüzü yerinə yetirilən fəaliyyətlə əlaqəyə malik olmur. Ona görə də onlar doğru / yalan qiyməti almır. Bu feillərin tərkibə daxil olduğu nitq aktları uğurlu və uğursuzluq, əlamətinə malik olur. Performativ nitq aktı danışanın sosial statusundan asılı olaraq yerinə düşən və ya yerinə düşməyən ola bilər. Məsələn, bələdçinin "xahiş edirəm, bileti göstərin" söyləmi rəsmi xahişdir, adresatın bileti təqdim etmək kimi məcburi reaksiyasını aktuallaşdırır. "İclası bağlı elan edirəm" rəsmi elanı toplantının onun seçimini sədri tərəfindən bağlanması barədə məlumat verir. "Köməyə görə minnətdarlığımı bildirirəm" danışanın qarşı tərəfin xeyirxah fəaliyyətinə layiqli qiymətidir. "Sizi Novruz bayramı münasibətilə təbrik edirəm" bayramın gəlişi ilə bağlı salamlaşma, təbrik formasıdır. Həyati şəraitləri yaratmaqla performativ söyləmlər müəyyən fəaliyyəti gerçəkləşdirir. Yuxarıdakı nümunələrdə biletlərin məcburi təqdimi, iclasın bitməsi, danışanın minnətdarlıq hisslərinin üzə çıxması, tanışlıq və s. fəaliyyətlər bilavasitə onların adlarının səslənməsi ilə reallaşır.

Performativ feillərin əksəriyyəti müəyyən propozisiyanı daxil edir və bu propozisiya dinləyənlərə belə situasiyanın olduğu, olması və olacağı barədə məlumat verir. Haqsız olduğumu etiraf edirəm. Xahiş edirəm sakitləşin, yalvarıram qurtar. Sizi sürücü təyin edirəm. Sizi qrupun rəhbəri təyin edirəm.

Müəyyən nitq situasiyalarında performativ feillərin modal xüsusiyyətləri onların öz funksiyalarını yerinə yetirməsinə mane olmur. Məsələn, Sizi rəqsə dəvət edə bilərəmmi? Sualı dəvətlə eyniyyət təşkil edir, vasitəli performativ adlandırılır. Mən sizdən xahiş edirəm bu işi görməyəsiniz. Xahiş edirəm bu işi görməyin. İcazə verin məlumat verim. Məlumat verirəm. Göstərilən qrammatik formalarda feillərin performativ funksiyaları onlar üçün sadə, kanonik formadadır. Lakin belə forma yeganə deyildir və bir sıra hallarda onu III şəxs üçün olan forma əvəz edə bilir. Bu halda danışanın konkretliyi ortadan götürülür, o ümumiləşdirilir. Xahiş olunur siqaret çəkməyəsiniz. Sərnişinlərdən yerlərini tutmaq xahiş olunur. Bəzi isimləri danışan nitq anında vəziyyəti təyin etmək və ya qiymətləndirmək üçün istifadə edir. Məsələn, Şah! Mat! Performativlər frazeoloji vahid və nitq çeşidləri formasında da istifadə oluna bilir. Məsələn, Sizdən böyük bir

xahişim var. Sizdən bir xahişim var. Sizdən xahiş edirəm. Xahiş edirəm. Sizin bayramınız mübarək. Bayramınız mübarək! Bayram münasibətilə təbrik edirəm və s.

Performativlərə münasibətdə iki problem kifayət qədər aydınlaşdırılmamışdır: 1. Performativlər ayrıca leksem sayıla bilərmi; 2. Performativ feillərin semantik tipologiyası və semantik zonası necə təsvir olunmalıdır? Şübhəsiz ki, nitq aktları nəzəriyyəsində bu iki istiqamətdə də tədqiqatlar aparılır.

Sosiallaşdırılmış performativlər aşağıdakı tip feillərlə təqdim olunur: a) danışanın elanı nəticəsində obyektiv gerçəklikdəki vəziyyəti təyin edən deklarativlər (elan edirəm, vəsiyyət edirəm, məhkum edirəm, adlandırıram, həsr edirəm, ithaf edirəm, təyin edirəm, azad edirəm, istefa edirəm və s); b) danışanın öhdəliyini göstərən komissivlər (əmin edirəm, söz veriirəm, təmin edirəm, təminat verirəm, eşidirəm, tabe oluram, and içirəm və s); c) danışanın söyləm adresatına təsirini ifadə edən təhriklər, xahiş feilləri də bura aiddir (xahiş edirəm, əmin edirəm, zəmanət verirəm, məsləhət görürəm, xəbərdarlıq edirəm, qadağan edirəm, icazə verirəm və s); ç) danışanın etirafını ifadə edənlər (etiraf edirəm, günahkaram, təqsirkaram/ təqsirimi boynuma alıram və s); d) razılıq, etiraz ifadə edənlər (razılaşıram, etiraz edirəm, inkar edirəm, rədd edirəm, təklifimi geri götürürəm və s); e) bəyənmə və inam feilləri (bəyənirəm, tərifləyirəm, inanıram, xeyir-dua verirəm, bağışlayıram, müqəssir sayıram bə s); ə) məlumat feilləri (məlumat verirəm, xəbər verirəm, nəzərinizə çatdırıram və s); f) adamlar arasında təyin edilmiş mərasim ünsiyyətini ifadə edənlər (üzr istəyirəm, uğurlar arzulayıram, təəssüf edirəm və s).

Qeyd etmək lazımdır ki, vokativlər də nitq aktları sırasına daxildir. Onlara vokativ nitq aktları deyilir. Belə nitq aktlarında əsas məqsəd adresatın diqqətini bəxş etməkdir.

Beləliklə, nitq aktlarını illokutiv gücə, məqsədə görə müxtəlif şəkildə təsnifi mümkündür. Bu məsələdə meyarın, daha doğrusu dəqiq meyarın seçilməsi çətindir. Belə çətinlik nitq aktında istifadə edilən feilin semantikası ilə bağlıdır.

Açar sözlər: nitq, nitq aktı, lokusiya, illokusiya, lokutiv akt, illokutiv akt, nitq aktı.

Ключевые слова:

Key words:

Nitq aktlarının təsnifinə dair

Rezume

Məqalədə nitq aktları nəzəriyyəsinin əsas anlayışları barədə məlumat verilir, lokusiya, illokusiya, lokutiv akt, illokutiv akt, perlokutiv akt məsələlərinə aydınlıq gətirilməsinə cəhd göstərmir. Tədqiqatçıların nitq aktlarının öyrənilməsinə yanaşma üsulları nəzərdən keçirilir. Yazıda nitq aktlarının, illokutiv güc və məqsəd əsasında təsnifi məsələsinə baxılır. Nitq aktlarının reprezentativ, deklarativ, direktiv, komissiv, ekspressiv, vokativ, performativ kimi növləri şərh olunur.

Ədəbiyyat

1. Яковсон Р.Разработка целовой модели языка в европейской лингвистике в период между двумя войнами II Новое в лингвистике ,Вып. 4.Москва,Прогресс,1964,с.352-375

2. Звегинцев в В.А.Функсия и цель в лингвистической теории //

Провлемы теоретической и экспериментальной лингвистики.Москва,Изд-во МГУ,1977

3.Яковсон Р.Лингвистика и поэтика //Структурализм «за» и «против».Москва,1975

4.Остин Дж.Л.Слово как действие //Новое в зарубежной лингвистике:Вып.17.Теория речевых актов.Москва,Прогресс.1986,с.22-131

5.Стросон П.Ф.Намерение и конвенция в речевых актах // Новое в зарубежной лингвистике Вып.17,Москва,Прогресс,1986,с.131-151

6.Кобзаева И.М. «Теория речевых актов» как один из вариантов теории речевой деятельности //Новое в зарубежной лингвистике .Вып.17.Москва,Прогресс,1986,с.7-22

7.Серль Дж.Р. Что такое речевой акт //Новое в зарубежной лингвистике Вып.17.Москва,Прогресс ,1986,с.151-170

8.Серль Дж.Р.классификация иллокутивных актов//Новое в зарубежной лингвистике 17.Москва ,прогресс,1986,сю170-195
9.Анароглу Т. Набатат //"Azərbaycan" ,Bakı.2019,№;2,c.67-79

**Г.Джамаля**

**К классификации речевых актов**

**Резюме**

В статье даются сведения об основных понятиях теории речевых актов; делается попытка внесения ясности в проблемы локуции, иллокуции, локутивных, иллокутивных и перлокутивных актов. Дается обзор научных концепции и подходов учёных к изучению речевых актов; рассматривается проблема классификации речевых актов на основе иллокутивной силы и цели письменной форме. Анализируются репрезентативный, декларативный, директивный, комиссивный, экспрессивный, вокативный, перфомативный виды речевых актов.

В теории речевых актов – одном из направлений современной лингвистики реплики адресата, направленные адресату, делятся на различные типы и виды. Каждый из этих речевых актов оказывает своё воздействие в процессе общения. Это воздействие зависит от семантики речевого акта, от языковых средств, выбранных для формирования мысли. Для определения принадлежности речевого акта, используемого в общении, к конкретному виду необходим выбор определённых критериев. Классификация речевых актов создаёт основу для внутренней классификации их видов. В этом случае речевой акт поощрения можно разделить на такие подвиды, как просьба, желание, хотение, мольба. Исследование показало, что каждый подвид определяется в результате семантического анализа речевого акта. Разница между просьбой и поощрением требует в некоторых случаях от участников речевой ситуации учёта и предшествующих фактов. Некоторые модели, связанные с речевым этикетом, могут быть отличительной особенностью речевого акта просьбы. Это лингвистическое явление относится только к речевым актам, связанным с моделями этикета. Некоторые готовые модели, соответствующие речевому этикету, используются и в речевом акте.

**Ключевые слова:** речь, речевой акт, локуция, иллокуция, локутивный акт, иллокутивный акт

J.Huseynova

**Classification of speech acts**

**Summary**

The article contains the information about the main notions of theory of speech acts. The author tries to clarify the problems of locution, illocution, locative, illocutive and, perlocutive acts. The article also contains the view of the scientists' conceptions and approachs to the study of speech acts. The problem of classification of speech act on the basis of the illocutive force and purpose in the written form is considered. The representative, declarative, directive, comissive, expressive, vocative, performative kinds of speech acts are analized.

An addresser's replies addressed to an addressee are divided into the different types and kinds in the speech act theory – one of the directions of modern linguistics. Each of these speech act has its own influence during the communication process. This influence depends on the semantics of the speech act, language means chosen for formation of the thought.

It is necessary to choose certain criteria in order to determine belonging of the speech act used in communication to the concrete kind. Classification of speech acts forms the basis for the inner classification of their kinds. In this case the speech act of encouraging can be divided in such subtypes as requesting, desire, volition, invocation. The research shows that each subtype is determined as a result of the semantic analysis of the speech act. In some cases the difference between requesting and encouraging demands from the participants of speech situation to take into consideration the previous acts. Some models connected with the speech etiquette can be a distinctive feature of the speech act of requesting. This linguistic phenomenon is related only to the speech acts connected with the models of etiquette. Some finished models that correspond to the speech etiquette are used in the speech act.

**Key words: speech,** speech act, locution, illocution, locative act, illocutive act

Redaksiyaya daxil olma tarixi: 20 04.2019
Çapa qəbul olunma tarixi: 31.05.2019
Filologiya üzrə fəlsəfə doktoru, dosent Abbas Abbasov tərəfindən çapa tövsiyə olunmuşdur.